**UOT 159.9**

***Gülşən Bəşirova***
***Filologiya üzrə fəlsəfə doktoru, dosent***
***Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi***
***AZ1018, Bakı, Xətai, Admiral Naximov, 18,***
***E-mail*: aah@mod.gov.az**

# ALİ HƏRBİ TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ GƏLƏCƏK ZABİTLƏRİN VƏTƏNPƏRVƏRLİK TƏRBİYƏSİ PROSESİNİN NƏZƏRİ-METODOLOJİ ƏSASLARI

**Xülasə**: Ali hərbi təhsil müəssisələrində gələcək zabitlərin vətənpərvərlik tərbiyəsinin nəzəri-metodoloji əsaslarının tədqiqi ən aktual problemlərdəndir. Məqalədə vətənpərvərlik anlayışının mahiyyət və məzmunu araşdırılmışdır. Bu sahədə qarşıda duran vəzifələrin müəyyənləşdirilməsinə cəhd göstərilmişdir. Məqalədə qeyd olunur ki, azərbaycançılıq, milli inkişafın mədəni-tarixi təbəqəsi olmaqla strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir. Həmçinin, azərbaycançılıq milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin qorunmasında öz əksini tapır. Sistemli fəaliyyət yanaşması metodoloji əsas kimi götürülmüşdür. Burada gələcək zabitlərin hərbi ali məktəb şəraitində vətənpərvərlik tərbiyəsinin davamlı inkişafı, onların fəaliyyətinin mənəvi dəyərlər əsasında stimullaşdırılması zərurəti əsaslandırılır.

"Vətənpərvərlik" anlayışının genezisinin təhlililinin nəticəsi kimi bu duyğu hər bir azərbaycanlıya xas olan, əsrlər boyu onların canına, qanına hopmuş xüsusi hiss və keyfiyyətlər məcmusu kimi müəyyənləşdirilir.

**Açar sözlər:** Vətənpərvərlik, mentalitet, milli mənəvi dəyərlər, milli ideya, sistemli fəaliyyət, keyslər, vətənin keşikçisi.

Mövzu ilə bağlı elmi-nəzəri ədəbiyyatın müqayisəli təhlilinin nəticəsi kimi XX əsrin 60-cı illərindən bu günə qədər olan dövrü şərti olaraq dörd mərhələyə bölmək olar: cəmiyyətdə vətənpərvərlik ideyasının sabit inkişafı; vətənpərvərliyin inkişafında durğunluq; vətənpərvərlik tərbiyəsində elmin və

təcrübənin bir-birindən ayrı düşməsi; müstəqilliklə bağlı ölkəmizdə vətənpərvərlik ideyasının dirçəlişi.

Vətənpərvərlik ideyalarının inkişafının hər bir tarixi mərhələsi üçün müəyyən tarixi hadisələr xarakterikdir. Lakin “Vətənpərvərlik" anlayışının mahiyyəti, elmi-nəzəri məzmununun müəyyənləşdirilməsi, ona yığcam və aydın tərif verilməsi cəhdi bütün dövrlərin tədqiqatlarının orta xəttidir desək, yanılmarıq. Fikrimizcə, "Vətənpərvərlik" anlayışının genezisinin təhlilinin nəticəsi kimi vətənpərvərliyin hər bir azərbaycanlıya xas olan, əsrlər boyu onların canına, qanına hopmuş xüsusi hiss və keyfiyyətlər məcmusu kimi müəyyənləşdirmək olar. Bu hiss və keyfiyyətlər mentalitetin, mədəniyyətin, tarixin,ənənələrin, öz vətəninə və xalqına münasibətinin əsasını təşkil edir və özünü hər hansı bir işğalçıya qarşı nifrət hissində, Azərbaycanın azadlığı və müstəqilliyi naminə fədakarlıq nümayiş etdirməyə hazır olmaqda göstərir.

Müasir Azərbaycanımızda milli ideyanın - azərbaycançılığın təməlləri ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuşdur. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində Azərbaycan dövlətinin qarşısında duran vəzifələri, onların Azərbaycan Respublikasına münasibətdə üzərinə mənəvi öhdəlikləri, azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiya kimi nəzərdə tutulur. “Suverenliyimizi daim yaşatmaq, harada yaşamasından asılı olmayaraq bu bu gün dövlət müstəqilliyimizi əbədi etmək üçün hər bir azərbaycanlıdan Azərbaycançılıq ideologiyası ətrafında əməl və əqidə birliyi, sarsılmaz həmrəylik tələb olunur” [1. s.5].

Azərbaycançılıq, milli inkişafın mədəni –tarixi təbəqəsi olnaqla , strateji inkişafın əsas yollarını və istiqamətlərini müəyyənləşdirir, milli dilimizin sarsılmazlığında, milli mədəniyyətin üstün rolunda və milli dəyərlərin qorunmasında öz əksini tapır. Ərazi o zaman vətənə çevrilir ki, milli ruhla canlanmış olsun[2, s.225].

Hərbi profilli təhsil müəssisələrində gələcəyin zabitlərinin vətənpərvərlik tərbiyəsinin ideya və nəzəri-praktik istiqamətlərinin müəyyənləşdirilməsi pedaqoji tədqiqatların ən aktual problemlərindəndir.

Vətənpərvərlik vətən naminə fədakarlığa, öz ölkəsinin əhalisinin rifahı naminə əməyə, vətənin tarixi irsinin qorunmasına hazır olmaq kimi sistemli fəaliyyətə əsaslanır. Qısa şəkildə vətənpərvərlik tərbiyəsinin aşağıdakı istiqamətlərini xarakterizə etmək olar: mülki-vətənpərvərlik; dövlət vətənpərvərliyi; qəhrəmanlıq vətənpərvərliyi və hərbi vətənpərvərlik. Hərbi ali təhsil müəssisələrində kursant hazırlığı prosesində tarixi vətənpərvər komponentlərin istifadəsi onların hər birində aşağıdakı xüsusiyyətlərin formalaşmasına və inkişafına təkan verir: məsuliyyət, şərəf, zəhmətsevərlik, ləyaqət, qərəzsizlik, mərhəmət, kollektivçilik, məqsədyönlülük, dayanıqlılıq, peşəkarlıq, vətən naminə fədakarlığa hazır olmaq. Bu istiqamət tədqiqat prosesinin metodoloji əsasını təşkil edən sistemli yanaşma ilə üzvi şəkildə birləşir. Bu yanaşma gələcək zabitlərdə vətənpərvərlik tərbiyəsində keyfiyyətcə yeni effektlərin alınması üçün sistemli yanaşma ilə fəallığın inteqrasiyasının (I.V Blauberq [4],

L.S. Viqotskiy, P. Y. Qalperin, V.V. Davıdov[5]., T.V. Kudryavtsev, V. T. Kudryavtsev A.E. Maron, A.N. Tomilin, N.P. Şatalova, R.M. Şerayzinavə, İ.F. İsayev, A.N.Leontiyev, V.P. Manuxin, R.V. Starkov, A.I. Tarenko, E.N. Şiyanov, E.Q. Yudinvə s.) əsasını təşkil edir. Bu qarşılıqlı əlaqə pedaqoji sistemin bütün komponentləri arasında birliyi müəyyən etməyə (məqsədlər, vəzifələr, məzmun, prinsiplər, formalar, üsullar, şərtlər və tələblər); vətənpərvərliyin bütün komponentlərinin bir-biri ilə sıx əlaqələrini və qarşılıqlı fəaliyyətini izləməyə; əməli fəaliyyət əsasında hər bir komponentin ümumi xassələrini və xüsusiyyətləriniaşkar etməyə və təkmilləşdirməyə imkan verir. Gələcək zabitlərin vətənpərvərlik tərbiyəsi prosesinin təşkil olunmasında sistemli fəaliyyətin həyata keçirilməsinin əsas müddəaları aşağıdakılardır: fəaliyyətin motivasiyasını nəzərdə tutan gələcək zabitlərin vətənpərvərlik keyfiyyətinin formalaşması strukturuna uyğun sistemli təlim-tərbiyə prosesinin koqnitiv komponenti kimi informasiya- dünyagörüşü bacarığının inkişafı; praktik yönümlü real hərəkətlər məcmusundan ibarət olan təcrübələrin səmərəliliyinin təmin edilməsi (gələcək zabitlərin hərbçilərin təlim-tərbiyəsində iştirak-təlim təcrübəsi), məzunların hərbi xidmətə hazır olması üçün məktəbdə təlim-tərbiyə şəraitinin yaradılması və s.; tədqiqatın instrumental aparatının müəyyən edilməsi; vətənpərvərlik tərbiyəsinin əsas strategiyası kimiçıxış edən sistemli fəaliyyət fenomenini nəzərdən keçirməyə imkan verənsistemlilik, komplekslilik, konstruktivlik prinsiplərini nəzərə almaqla tədris-tərbiyə prosesinin təşkili. Sistemli-fəaliyyət yanaşmasına daxildir: fərdi-individual (motivlər, hazırlılıq, fəaliyyət, maraqlar) və prosesual fəaliyyət (hərbi ali təhsil müəssisəsinin xarici və daxili mühitinin kursantlara təsir növü və formaları). Araşdırma göstərir ki, sistemli fəaliyyət insanın konstruktiv düşüncə, bilik və bacarıqlarını inkişaf etdirməyə şərait yaradan aktiv mövqeyinin formalaşmasına imkan verir . Bu isə özünütərbiyə, özünütəhsil, özünüinkişaf və müstəqil şəkildə öz intellektinin strukturunu yaratmaq bacarığının təkmilləşdirilməsində özünü göstərir. A.Y. Voykinin, V.V. Dyaçenkonun, N.N.Jukoveçin və s. tədqiqat işlərinin təhlili göstərir ki, vətənpərvərlik tərbiyəsinin prinsiplərinin mahiyyəti konkret təcrübi tələblərdən ibarətdir, yəni hər bir prinsip nəzəriyyəni və təcrübəni birləşdirən bir bənddir. Vətənpərvərlik tərbiyəsinin prinsiplərinin məcmusu onun struktur vahidləri ilə, vəzifələri ilə, əsas məqsədi ilə, dövlətçilik ideyasına tabe olantərbiyə mahiyyəti ilə şərtlənir.

Həmçinin gələcək zabitlərin vətənpərvərlik tərbiyəsinin xüsusi və baza prinsiplərindən də bəhs etmək mümkündür. Filrimizcə, hərbi ali təhsil müəssisələrində kursantların pedaqoji fəaliyyət təcrübəsində həyata keçirilən vətənpərvərlik tərbiyəsi konsepsiyasının baza prinsiplərini aşağıdakı kimi qruplaşdırmaq olar: hədəflər məkanının dərk edilməsi- kursantların şəxsi hədəflərinin və motivasiyasının müəyyənləşdirilməsi; təhsil müəssisəsinin qarşısında duran məqsədlər; dövlətin məqsədləri; motivasiya məkanının məqsədəuyğunluğu - şəxsi məqsədləri dövlətin məqsədləri ilə birləşdirən motivasiya məkanının qurulmasının kursantlara təsiri; fəaliyyətin konstruktiv məkanına əlçatanlıq-vətənpərvərlik tərbiyəsi üçün sistemli məkanın hazırlanmasınaəlçatanlıq və məqsədə çatmağa yönəlmiş bu məkanda yaradıcılıq potensialının həyata keçirilməsi.

Sistemli yanaşmaya əsaslanan vətənpərvərlik tərbiyəsinin ümumi prinsiplərinə aiddir: kursantlarda vətənpərvərlik hisslərinin inkişafına yönəlmiş fəalyyətin demokratikləşməsi və humanistləşdirilməsı. Bu həmçinin cəmiyyət üçün vətənpərvər yetişdirilməsinin inkişafının ümumi zəruri tendensiyalarını özündə əks etdirir; bütün sosial tələbatlar və imkanlar, dövlətin və onun əhalisinin mədəniliyi; dayanıqlı kommunikativliyin təmin edilməsi- tərbiyəçidən kollektivdə ümumi anlaşma, hərəkətlərinə görə cavabdehlik və qarşılıqlı anlaşma mədəniyyəti atmosferi yaratmaqla kommunikativ şəraitin təmin edilməsini tələb edir; şəxsi potensialın aşkarlanması- tərbiyəyə fərdi və differensial yanaşma metodikasını bilməklə təmin olunur və tərbiyə fəaliyyətinin subyektlərinin arasında qarşılıqlı asılılıqla şərtlənir; nəsillərarası varisliyə əməl etmək nəsillər arasında qarşılıqlı əlaqəni göstərir və bu zaman sonradan gələn hər bir nəsil məqsəd və fəaliyyətin nəticələrində ümumillini tapır, amma öz identikliyini də qoruyur.

Gələcək zabitlərin hərbi ali məktəb şəraitində vətənpərvərlik tərbiyəsinin metodoloji əsasını sistemli fəaliyyət yanaşması götürməklə qeyd etməliyik ki məqsədyönlülük gələcək zabitlərin vətənpərvərlik tərbiyəsində davamlı keyfiyyətlərin inkişafını, onların fəaliyyətinin mənəvi dəyərlər əsasında stimullaşdırılmasını nəzərdə tutur. Məqsədə çatmaq üçün aşağıdakı məsələlərin həlli zəruridir: kursantlarda vətənpərvərliyin formalaşması prosesinin vətənpərvərliyi yaradan sistemli fəaliyyətlə müşayiət olunmasının inkişafı; kursantların vətənpərvərlik tərbiyəsi maraqları çərçivəsində hərbi və mülki mədəniyyət müəssisələrinin potensialından və vəsait arsenalından istifadə; vətənpərvər yönümlü ictimai təşklatlarla, yerli hakimiyyət orqanları və ümümtəhsilmüəssisələri ilə hərbi-qəyyumluq işinin inkişafı; məkana riayət etmək; nəsillərin davamlılığının tarixi motivasiyasının məqsədyönlülüyü; konstruktiv məkana dayanıqlı kommunikasiya əlçatanlığı təmin etmək – şəxsiyyətin fəaliyyət potensialının açıqlanması. Kollec və məktəblərdə tədris praktikası, hərbi hissələrdə peşəkar təcrübə, rəsmi və qeyri-rəsmi qruplar və birliklərlə ictimai praktika: tədbirlər, ənənələr, nəsillərin davamlılığı, muzeylərin, klubların işi vətənpərvərlik müstəvisinə tənzimlənməlidir.. Bu davamlı prosesdə hərbi məktəbin, kursantın, ictimai-peşəkar tərəfdaşların motivasiya məkanı, gələcək zabitlərin şəxsi –peşəkarlıq məkanı, fəaliyyətin konstruktiv məkanı, informasiya məkanı,vətənpərvərliyin inkişaf səviyyəsinin diaqnostikası, sistem və motivasiya-məqsəd məkanının səmərəliliyinin diaqnostikası və s. bir hədəfə istiqamətləndirilməlidir.

Zabit fəaliyyəti zamanı gözlənilməz, çətin situasiyalarda qərarlar gəbul etməli olduğundan onun həm texniki bacarığı, həm də psixoloji durumu yüksək olmalıdır[3, s.11]. Silahlı qüvvələr mühitində fərdin uğurlu fəaliyyətinin şərtləri mənəvi-əxlaqi dəyərlərin, mövqelərin, motivasiyanın möhkəmlənməsindən ibarətdir. Fərdin motivasiya məkanı olmadan, psixoloji hazırlığı olmadan öz borcunu və vəzifələrini lazımi səviyyədə yerinə yetirməsi mümkün deyildir. Vətənpərvərlik tərbiyəsi prosesində gələcək zabitlərin fərdi-peşəkar məkanının məqsədi dövlət siyasətini həyata keçirilməsi zamanı mənəvi-psixoloji dayanıqlığını yüksək səviyyədə qoruması, hərbi nizam-intizamın yerinə yetirilməsi prosesində tərbiyə sisteminin rolunu, yerini və funksiyalarını aydın dərk etməsidir.

Bu məkanda şüurun fərdi inkişafı, psixikanın yenidən qurulması, kursantın hərbi cəhətdən peşəkarlaşması baş verir. Kursantın fərdi- professional fəaliyyəti məkanında "Vətəninin keşikçisi" kimi yüksək vətənpərvərlik hissinin formalaşması baş verir. Bu hissə isə gündəlik hərbi xidmət zamanı lazım olan və ekstremal şəraitdə uğur qazandıran cəsarət, mətinlik və igidlik keyfiyyətləri xasdır. Konstruktiv məkanın strukturuna isə daxildir: maddi-texniki baza, mədəni istirahət müəssisələri, təlim-tərbiyə işçilərinin peşə təlimləri, hərbi kafedraların müəllimlərinin metodik hazırlığı və s.

Vətənpərvərlik tərbiyəsinin konstruktiv şəraitinin müasir vəziyyətinin tədqiqı göstərir ki, araşdırılan məkanın əsas konstruktları təlim-tərbiyə şəraitindən ibarətdir (keyslər). Keyslər- kursantlarda müasir hərb elminin əsas və taktik tələbləri olan yüksək ideyalılıq, vətənpərvərlik hisslərinin formalaşmasına kömək edən keyfiyyətlərin aşılanmasına yönəlmiş tədris məşğələlərinin fraqmentləridir.

Hərbi məktəbin informasiya məkanı hərbi məktəb kursantlarının məlumatlandırma sistemini, ordunu infromasiya ilə təmin edən hərbi idarəetmə orqanının fəaliyyətinin koordinasiya sistemini, tərbiyə və mədəni-istirahət tədbirləri sistemini, vətənpərvərlik səviyyəsinin inkişafının diaqnostikasını, sistemli və motivasiya-məqsədli məkanın səmərəliliyinin diaqnostikasını özündə cəmləşdirir.

İnformasiya məkanının inkişaf proqramının komandir-müəllim heyəti və kursantlarla birgə hazırlanması məqsədəuyğundur. Şüurlu şəkildə planlaşdırılmış tədbirlər, onların məqsəd və vəzifələri kursantlar tərəfindən öz köklərini unutmamaq, Vətən tarixini bilmək, milli mənəvi dəyərlərimizi sevmək və onlara əməl etmək hissi formalaşdıracaq. Bu isə gənc nəsildə dolayısı və yorucu olmayan özünü vətənpərvərlik tərbiyəsi yoludur.

Kursantlarda hərbi vətənpərvərliyin formalaşması müvafiq göstəricilərlə müəyyən olunur: koqnitiv, motivasiya-dəyərli, fəaliyyət-yaradıcı və yaradıcı-reflektiv.

Araşdırmamız zamanı əsas götürdüyümüz sistemli fəaliyyət yanaşması əsasında gələcək zabitlərin vətənpərvərlik tərbiyəsinin nəzəri-metodoloji əsasları hərbi ənənələrimizlə vəhdətdə götürüldükdə qarşıya qoyulan məqsədin daha səmərəli və effektli həyata keçməsinə nail ola bilərik.

## **Ədəbiyyat**:

1. Əliyev H. Ə. Müstəqillik yolu. Seçilmiş fikirlər. Bakı: "Azərbaycan Universiteti" nəşriyyatı, 1997 — 136 s.
2. Xəlilov Səlahəddin. Əbu Turxanın hikmət dünyası. Bakı:"Çaşıoğlu" nəşriyyatı, 2012, 445 səh.
3. Şəfiyeva E.İ. Zabit hazırlığının sosial-psixoloji xüsusiyyətləri. Psixalogiya elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Aftoreferatı. Bakı: 2008, 44s.
4. Блауберг, И. В., Юдин, Э. Г. Становление и сущность системного подхода. – М.: Наука, 1973. – 270 с

5. Давыдов, В. П. Методика военно-педагогического исследования. – М.: ВПА, 1967. – 61 с
6.Шишерин А.И., Наумлюк А.Г. Особенности психологии общения в курсантских подразделениях. https://www.scienceforum.ru/2017/2359/33793
7.Чернова С. Н. Каким быть будущему офицеру? // Ориентир. 2002. – № 5. – С. 26–8 Фоменко, С.И. Вопросы воинского воспитания на современном этапе развития Вооруженных Сил РФ // Актуальные вопросы общественного развития. Материалы Международной научно-практической конференции / под ред. проф. Ф.И. Шаркова. – М.: Раритет Инфо, 2011. – С111-114.

**Гюльшен Баширова**

**Теоретико-методологические основы процесса патриотического воспитания будущих офицеров в высших военных учебных заведениях**

**Резюме**

Анализ теоретико-методологических основ процесса патриотического воспитания будущих офицеров в высших военных учебных заведениях является одной из актуальных проблем. В статье были рассмотрены сущность и значение понятия патриотизм. Также в статье была сделана попытка определить предстоящие задачи в этой области. В статье отмечается что, азербайджанство есть культурно-исторический слой национального развитияи определяет основные пути и направления стратегического развития. Азербайджанство также отражается в непоколебимости национального языка, в превосходстве роли национальной культуры и защите национальных ценностей. Подход системной деятельности был взят в качестве методологической основы. Он создает необходимость продолжительного развития патриотического воспитания будущих офицеров в высших военных учебных заведениях, а также стимулирования их деятельности на основе духовных ценностей. Как результат анализа генезиса, понятие патриотизма это ощущение свойственно каждому азербайджанцу и определяется, как совокупность особых чувств и качеств, которые веками были впитаны в их кровь и душу.

**Ключевые слова:** патриотизм, менталитет, национальные духовные ценности, национальная идея, систематическая деятельность, кейсы, защитник отечества.

**Gulshen Bashirova**

**Theoretical and methodical fundamentals of patriotic education of future officers in high military schools**

**Summary**

An analysis of the theoretical and methodological foundations of the process of patriotic education of future officers in higher military educational institutions is one of the urgent problems. In the article the essence and content of the concept of the patriotism have been researched. Also a great effort is made to determine the forthcoming tasks in this field. It’s also noted in the article that  Azerbaijani heritage is a cultural and historical section of the national development and it defines the main ways and directions of the strategic development. Azerbaijani heritage is also reflected in national language’s staunchness, superiority of national culture and in defending of national values. The territory becomes a homeland atthe time when it is animated by the national spirit. Patriotism is based on such systematic activity as dedication, readiness to work for the well-being of its own people, and protection of the country's historical heritage.The approach of systemicactivity was taken as a methodological basis. It creates the need for continued development of patriotic education of future officers in higher military educational institutions, as well as stimulation of their activities on the basis of spiritual values.As a result of the analysis of genesis, the concept of patriotism is a characteristic of every Azerbaijani and is defined as a set of special feelings and qualities that have been absorbed into their blood and soul for centuries.

**Keywords:** patriotism, mentality, national spiritual values, national idea, systematic activities, cases, defender of Motherland.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 18.06.2018 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 25.06.2018Məqalənin çapa qəbul olunma tarixi: 05.07. 2018**

**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: kulturologiya üzrə fəlsəfədoktoru, dosent Sədaqət Əliyeva**

**ADMİU-nun Elmi Şurasının 06 iyul 2018-ci il, 09 saylı qərarı ilə çap olunur**